# İNFORMASİYA CƏMİYYƏTİNİN FORMALAŞMASINDA KİTABXANALARIN ROLU

**Y.A.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***

*Məqalədə kitabxanaların informasiya cəmiyyətinin formalaşmasında və inkişafında oynadığı rol qısa şəkildə şərh edilmişdir.*

Cəmiyyətin informasiyalaşdırılması adlanan qlobal proses ictimai həyatın bütün sahələrinə təsir göstərir. Bu prosesi fərqləndirən əsas cəhət cəmiyyətin yaşaması üçün informasiyanın fundamental faktora çevrilməsidir. Əgər əvvəllər cəmiyyətin həyatı əsasən maddi istehsaldan asılı idisə, indi müxtəlif növ informasiyalardan istifadə lazım gəlir. Yeni sivilizasiyalı cəmiyyətə informasiya faktoru maddi amil kimi qiymət kəsb edir və bu tarixi keçid inkişaf etmiş ölkələrdə daha aydın müşahidə olunur. Bu ölkələrdə sürətlə inkişaf edən informasiya emalı sənayesi və informasiya xidməti hər bir şəxsin fəaliyyətində getdikcə daha çox yer tutaraq, əmək ehtiyatlarının məşğulluğu baxımından maddi istehsala yaxınlaşır. Maddi istehsalın özü getdikcə daha çox informasiya emalı sənayesindən asılı vəziyyətə düşür. İnformasiyaya ictimai tələbat da dəyişir və onun nəticəsi kimi kitabxana işində də əsaslı transformasiyalar, texnoloji çevrilişlər getdikcə sürətlənir. Kitabxana işi getdikcə daha yüksək səmərəli informasiya vasitələri, metodları və texnologiyaları ilə silahlanmış və informasiya emalı sənayesinin güclü və əsaslı sahələrindən birinə çevrilir.

Azərbaycan Respublikasında əsaslı sosial-iqtisadi və siyasi dəyişikliklər, müxtəlif yönümlü dövlət proqramlarında yeni informasiya texnologiyalarının prioritet inkişaf istiqaməti kimi müəyyənləşdirilməsi ölkədə kitabxanaların vəziyyətini müsbət istiqamətdə dəyişir, onların funksiya və vəzifələrini genişləndirir və mürəkkəbləşdirir. Biz ölkədə kitabxanaların sosial missiyanın əsaslı dəyişməsinin şahidi və iştirakçılarıyıq. Kitabxanalar indi resbuplikada yeni informasiya infrastrukturunun yaradılması üçün baza rolunu oynayır.

Müasir kitabxana həm ənənəvi, həm də qeyri-ənənəvi altsistemlərindən ibarət olan mürəkkəb informasiya sistemidir. Yeni informasiya sistemləri içərisində elektron kataloq vacib yer tutur və onun yaradılması kitabxana işinin avtomatlaşdırılmasının prioritet istiqaməti hesab edilir. Məhz elektron kataloqa mailk olan kitabxana həm yerli oxuculara, həm də uzaq məsafədə yerləşən istifadəçilərə xidmət göstərmək imkanına malikdir.

Elektron kataloq kitabxanaların fəaliyyətinin bir sıra sahələrini optimallaşdırır. Bunlardan sorğular üzrə müxtəlif biblioqrafik göstəricilərin və arayışların hazırlanması, sənədin mövzu və ad üzrə axtarışı, uzaq məsafədən müraciət, etalon kartoçkaların və inventar kitabların hazırlanması, kompüterləşdir-

mə ilə bağlı uçot və statistik təhlil və s. göstərmək olar. İri kitabxanalarda milli dildə olan kitabların elektron kataloqu işlənir. Lakin bu kataloqların metodoloji və sistem texnoloji məsələlərinə dair tədqiqatlar aparılmamışdır.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununun 29-cu maddəsində kitabxanaların avtomatlaşdırılmasının hüquqi əsasları müəyyən edilmişdir. Bundan başqa "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" haqqında, "EHM-lər və məlumat bazaları üçün proqramın mühafizəsi" haqqında Azərbaycan Respublikasının Qanununda informasiya sistemlərinin sənəd bazası kimi kitabxanaların roluna diqqət verilmişdir. Respublika Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması" haqqında 21 aprel 2007-ci il tarixli sərəncamında ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanaların müasir standartlar səviyyəsinə qaldırılması və onun bazasında Azərbaycan ədəbiyyatının virtual kitabxanasını oxucuların tam istifadəsinə verilməsini qarşıdakı beş il ərzində əsas vəzifə kimi irəli sürülmüşdür. Bütün bunlar indiki dövrdə kitabxanaların ictimai həyatda informasiya orqanı kimi aparıcı rol oynadığını göstərir.

Ümumiyyətlə, elektron kataloqların işlənməsinə XX əsrin 60-cı illərində ABŞ-ın Konqres Kitabxanası tərəfindən başlanmışdır. Bu kitabxanada ilk dəfə olaraq maşınla oxunan kataloq formatı (MARC) yaradılmışdır. MARC Amerikan kataloqlaşdırma qaydalarına uyğun olaraq biblioqrafik təsvirin sahə və elementlərinin rəqəm formasına keçirilməsi üçün metodiki və texnoloji qaydalardan ibarət idi. MARC tarixən ilk dəfə ancaq Konqres Kitabxanasına daxil olan cari ədəbiyyatın biblioqrafik təsvirləri maşınlaoxunan formaya keçirərək poçt vasitəsilə digər ölkələrə göndərilirdi. Həmin ölkədəki kitabxanalar alınmış maqnit lentləri əsasında özlərinin biblioqrafik məlumat bazalarını yaradırdılar. 70-ci illərin sonlarına qədərki dövrdə MARC formatının bir sıra ölkələrdə milli formatları yaradıldı. Bunlardan ilk növbədə Kanada (CANMARC), İngiltərə (USMARC) və digərlərini göstərmək olar. Milli biblioqrafik yazı formatları əlaqədar ölkənin kataloqlaşdırma qaydalarına uyğunlaşdırılır və onların konkret istifadəsi üçün nəzərdə tutulmuşdur. MARC əsasında biblioqrafik yazıların bazasında digər ölkələrin iri kitabxanaları maqnit lentlərində elektron kataloq massivi yaratmışlar. Bunların da əsasını biblioqrafik məlumat bazaları təşkil edilmişdir. Maraqlıdır ki, ilk dəfə MARC formatının ABŞ-da yaradılmasına baxmayaraq ABŞ kitabxanaları üçün elektron kataloqlaşdırmanın milli formatı (USMARC) 70-ci illrin ortalarında yaradılmağa başlanmışdır. 70-ci illərin əvvəllərində ABŞ-da və bir sıra Avropa ölkələrində fərdi kompüterlərin telerabitə vasitələrinin disk texnologiyasının yaradılması ilə əlaqədar olaraq MARC-ın şəbəkə versiyası yaradılmağa başladı. Konqres Kitabxanasınada bu istiqamətdə təsnifat və predmet rubrikatoru yaradıldı. Yeni texnika və texnologiyalara uyğun olaraq MARC-ın yeni versiyaları işləndi. Bunlardan MARC I, MARC II, MARC III və MARC IV variantları qısa

vaxt ərzində bir-birinizi əvəz etməyə başladı. Böyük tutumlu maqnit disklərin, optik disklərin yaradılması ilə əlaqədar olaraq MARC-ın yeni format strukturu işləndi. Burada ikili say sistemi mükəmməl formada tətbiq edilməyə başlandı. İnternetin özək mərkəzlərinin yaradılması ilə əlaqədar olaraq biblioqrafik informasiyaların uzaq məsafədən ötürülməsi və axtarışı üçün geniş texniki və texnoloji imkkanlar yaradıldı. Lakin MARC formatı ilə milli kataloqlaşdırma kataloqları arasında quruluş etibarı ilə ziddiyyətlər olduğuna görə vasitəçi və yaxud keçid formatının yaradılmasına ehtiyac yarandı. Bununla əlaqədar olaraq UNİMARC, yəni universal MARC işlənib hazırlanmışdır. Hazırda bu format milli formatlarla MARC formatının uyğunlaşdırlıması üçün aralıq, keçid formatı rolunu oynayır. Bu məqsədlə UNİMARC-ın 9-cu bloku yəni milli uyğunluq formatı işləndi. XX əsrin 70-ci illərinin sonlarında elektron kataloqlaşdırma texnologiyasını tətbiq edən iri dünya kitabxanalarında kartoçka kataloqu ləğv edildi, online rejimli kataloqlar yaradıldı.

SSRİ-də avtomatlaşdırılmış elmi-texniki informasiya mərkəzlərinin yaradılması ilə əlaqədar olaraq 80-ci illərin əvvəllərindən USMARC-a müəyyən qədər uyğunluq təşkil edən kommunikativ formatlar yaradıldı. Həmin formatlara dövlət standartları işlədilib təsdiq edildi. Bunlar QOST 7.14.76. (Biblioqrafik yazının fiziki strukturu), QOST 7.19.76 (Biblioqrafik yazının semantik elementləri) dövlət standartları idi. Həmin standartlar əsasında ümumittifaq səviyyəli informasiya institutları biblioqrafik yazıların mübadilə formatlarını hazırlayırlar və cari informasiyaları bu formatlar əsasında bir-biri ilə mübadilə edirdilər. Lakin kommunikativ formatlar ancaq biblioqrafik yazıların informasiya mərkəzləri arasında mübadiləsi üçün hazırlandığından kitabxanalarda kataloqlaşdırma qaydalarına uyğun gəlmirdi. Buna görə də həmin formatlar əsasında kitabxanalar üçün işçi format yaratmağa ehtiyac duyulurdu. SSRİ Dövlət Ümumi Elmi-Texniki Kitabxanası bu problemləri həll etmək təşəbbüsündə bulundu. Lakin o dövr üçün lazımi texnika və metadalogiya olmadığından deyilən problemin həlli yarımçıq qaldı.

SSRİ dağıldıqdan sonra siyasi və iqtisadi problemlər kitabxanalarda bir müddət yeni informasiya texnologiyalarının tətbiqi üçün çətinliklər yaratdı. Kitabxanaların zəif maliyyə imkanları bu sahədə ixtisaslı kadrların olmaması yeni informasiya texnologiyalarının tətbiqinə mənfi təsir göstərirdi. Lakin 90-cı illərin ortalarından başlayaraq Azərbaycanda İnternetin geniş yayılmağa bağıadı. Müxtəlif humanitar təşkilatların və respublikada fəaliyyət göstərən xarici neft şirkətlərinin maliyyə yardımı ilə iri kitabxanaların bəzilərində yeni kompüterlərlə və telerabitə vasitələri ilə təchiz edilmiş İnternet zalları açıldı. Zaman keçdikcə İnternet həyatımızın ayrılmaz hissəsinə çevrildi. Elektron kataloqlaşdırma üçün nisbətən əlverişli şərait yaradıldı. Respublikanın iri kitabxanaları avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin işçi yeri kimi elektron kataloqlar yaratmağa başladılar. Bu məqsədlə Rusiya Dövlət

Ümumi Elmi kitabxanasının İRBİS, ABŞ Virginiya Universitetinin VTLS sistemləri və s. sistemlər satın alınıb tətbiq edilməyə başlandı.

Hazırda respublikanın bir neçə iri kitabxanasında və ali məktəb kitabxanalarında avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin "Kataloqlaşdırıcı" avtomatlaşdırılmış işçi yeri kimi elektron kataloqun işlənməsinə başlanmışdır. Bu sahədə həm M.F.Axundov adına Milli Kitabxana, həm də demək olar ki, bütün ali məktəb kitabxanaları əsaslı işlər görmüşlər. Kitabxanalarda elektron kataloqun yaradılması onlardan ictimai istifadənin təşkili bir daha kitabxanaların cəmiyyətin informasiyaya olan tələbatının ödənilməsində aparıcı mövqe tutduğunu sübut edir. Beləliklə, informasiya cəmiyyətinin inkişafında və insanların mədəniyyət, elm, təhsil, tərbiyə və informasiya əldə etməsində kitabxanaların oynadığı rol danılmazdır.

## ƏDƏBİYYAT

1. *XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf* istiqa*mətəri. Bakı, 2006, 106 s.*

2. *Müstəqillik illərində Azərbaycanda kitabxanaşünaslığın inkişafı. Milli Elmlər Akademiyası Elmi Kitabxanasının əsərləri. 2009, X buraxılış, s. 3-34.*

3. *Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Bakı, 2006, 206 s.*

## ROLE OF THE LIBRARIES IN FORMING OF THE INFORMATION SOCIETY

**Y.A.MAMMADOVA**

***SUMMARY***

*İn the article development role played in forming and of the information society of the libraries have been commented in the short picture.*

## РОЛЬ БИБЛИОТЕК В ФОРМИРОВАНИИ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА

**Е.А.МАМЕДОВА**

***РЕЗЮМЕ***

*В статье кратко изложена роль библиотек в формирование и в развитие информационного общества.*